# Azərbaycan Milli Elmlər Akademiyasının beynəlxalq əlaqələri



**ESMİRA ƏLİRZAYEVA**

*AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinin rəisi, biologiya üzrə fəlsəfə doktoru*

**RUSLAN QASIMOV**

*AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinin Xarici ölkələrin akademik qurumları ilə əlaqələr şöbəsinin rəis müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru*



Azərbaycan Milli Elmlər Akademiyasının beynəlxalq elmi əlaqələrinin inkişafı müştərək layihə proqramlarının təşkili, müxtəlif ölkələrin rəsmi nümayəndələri və alimləri ilə görüşlərin keçirilməsi, qabaqcıl elm və təhsil müəssisələri ilə əməkdaşlıq sənədlərinin imzalanması, AMEA alimlərinin müştərək tədqiqatlarda, təlim kurslarında və elmi forumlarda iştirakının təşviqi istiqamətlərində həyata keçirilmişdir.

AMEA-nın rəhbərliyi tərəfindən AMEA Rəyasət Heyətində, həmçinin xarici səfərlər zamanı elmi əlaqələrin genişləndirilməsi üçün bir sıra mühüm görüş və müzakirələr keçirilmişdir.

AMEA-nın prezidenti, akademik Akif Əlizadə, AMEA Rəyasət Heyətinin akademik-katibi, akademik Rasim Əliquliyev və AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlıdan ibarət nümayəndə heyəti Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Azərbaycanın və Böyük Britaniyanın yüksək rütbəli rəsmi nümayəndələri, Parlament və Lordlar Palatasının üzvləri, diplomatlar, bir sıra nüfuzlu beynəlxalq təşkilatların və müxtəlif akademik dairələrin təmsilçilərinin iştirakı ilə Londonda keçirilən təntənəli təqdimat mə-



*Şəkil 1. "Böyük Azərbaycan şairi Nizami" kitabının ingilis dilində ilk nəşrinin təqdimatı (London, Böyük Britaniya)*



*Şəkil 2. AMEA Yüksək Texnologiyalar Parkında Millers Oils Azerbaijan MMC-nin istehsalat kompleksinin açılışı (Bakı)*

rasimində iştirak etmişlər. Akademik A.Əlizadə tədbirdə çıxış edərək Fondun Himayədarlar Şurasının sədri, İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədri, akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universiteti nəzdində böyük Nizami Gəncəvinin adını daşıyan Mərkəzin yaradılması, həmçinin təşkil edilən təqdimat mərasiminin Böyük Britaniyada və Avropada Azərbaycanın milli dəyərlərinin təbliğ olunmasında xüsusi əhəmiyyətini vurğulamışdır. AMEA prezidenti Nizami Gəncəvi Mərkəzi tərəfindən şərqşünas-alim Yevgeni Bertelsin (1890-1957) ilk dəfə 1940-cı ildə rus dilində çap edilmiş "Böyük Azərbaycan şairi Nizami" ("The Great Azerbaijani Poet, Nizami") kitabının ingilis dilində ilk nəşrinin təqdimat mərasimində də məruzə ilə çıxış etmişdir (şəkil 1).

Akademik A.Əlizadə Y.Bertelsin kitabının hazırlanması və təqdimatını böyük bir uğur kimi qiymətləndirmiş, Azərbaycanın mənəvi irsinin mühafizə olunması və təbliği istiqamətində çox əhəmiyyətli töhfələrinə görə Oksford Universiteti nəzdində Nizami Gəncəvi Mərkəzinin Azərbaycan və Böyük Britaniya tərəfindən təsisçiləri, akademik Nərgiz Paşayeva və professor Robert Hoylandın AMEA-nın Nizami adına Qızıl medalına layiq görüldüyünü diqqətə çatdırmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Böyük Britaniyanın bir sıra elm, təhsil və istehsal sahələri ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində AMEA rəhbərliyinin Millers Oils Ltd şirkəti ilə Böyük Britaniyada və Azərbaycanda keçirilən müxtəlif görüş və müzakirələrinin uğurlu nəticəsi kimi AMEA Yüksək Texnologiyalar Parkında Millers Oils Azerbaijan MMC-nin istehsalat kompleksinin açılmasına nail olunmuşdur (şəkil 2).

Beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, alimlərin müştərək tədqiqatlara cəlb edilməsi və təcrübə mübadiləsinin təşviqi məqsədilə AMEA ilə müxtəlif ölkələrin qabaqcıl elmi qurumları arasında əməkdaşlıq sənədləri imzalanmışdır.

Akademik Akif Əlizadənin rəhbərlik etdiyi nümayəndə heyətinin Bolqarıstana səfəri zamanı Azərbaycan Milli Elmlər Akademiyası və Bolqarıstan Elmlər Akademiyası (BEA) arasında Elm və Texnologiya üzrə Əməkdaşlıq Sazişi və Protokol imzalanmışdır. Səfər çərçivəsində BEA-nın müxtəlif institutları, həmçinin Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti, Kitabxanaçılıq Tədqiqatları və İnformasiya Texnologiyaları Universiteti və Tibb Universitetinin rəhbərliyi və professor-müəllim heyəti ilə görüşlər keçirilmişdir. Müqəddəs Kiril və Mefodiy adına Milli Kitabxanada "Azərbaycanın Milli Coğrafi Atlası" və "Dünyanın Palçıq Vulkanları Atlası"nın təqdimatı olmuş və bu nəşrlər Kitabxanaya hədiyyə edilmişdir. AMEA ilə əməkdaşlıq perspektivləri, AMEA-nın tarixi, strukturu, fəaliyyət istiqamətləri və həyata keçirilən beynəlxalq layihələr üzrə akademik A.Əlizadə ilə müsahibə Bolqarıstanın "Focus" xəbər agentliyi və



*Şəkil 3. Bolqarıstan Respublikasının vitse-prezidenti xanım İliana Yotova ilə AMEA Rəyasət Heyətində görüş (Bakı, Azərbaycan)*

digər KİV tərəfindən ətraflı işıqlandırılmışdır.

Azərbaycan və Bolqarıstan alimlərinin elmi əlaqələrinin inkişafı, AMEA rəhbərliyinin Bolqarıstana səfəri çərçivəsində, həmçinin vitse-prezident xanım İ.Yotovanın Azərbaycana səfəri zamanı AMEA Rəyasət Heyətində görüşü zamanı ətraflı müzakirə olunmuşdur, iki ölkənin elmi potensialı nəzərə alınaraq gələcək perspektivlər və müştərək tədqiqat sahələri müəyyənləşdirilmişdir (şəkil 3).

Əlcəzair Elm və Texnologiya Akademiyasının (ƏETA) dəvəti ilə AMEA nümayəndə heyətinin Əlcəzairə səfəri də müxtəlif görüş və müzakirələrlə zəngin olmuşdur. AMEA və ƏETA arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu Əlcəzair hökumətinin nazirləri və nazir müavinləri, Dövlət Qaz Şirkəti SONALQAZ və Dövlət Neft Şirkəti SONATRAK-ın rəhbərliyi, elmi ictimaiyyət və çoxsaylı KİV nümayəndələrinin iştirakı ilə keçirilən geniş mərasimdə imzalanmışdır.

Səfər çərçivəsində akademik Akif Əlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti Əlcəzair Respublikasının Baş naziri cənab Əhməd Uyahya və Əlcəzairin Ali Təhsil və Elmi Tədqiqatlar naziri cənab Ət-Tahir Hicarla da görüşmüşdür (şəkil 4). Görüşlər zamanı Azərbaycanla elmin müxtəlif istiqamətlərində əməkdaşlıq üçün Əlcəzair dövləti tərəfindən dəstəyin göstərilməsi və müştərək elmi fəaliyyət üzrə əməli addımlar, elmi kadr hazırlığının perspektivləri ətraflı müzakirə edilmişdir. Azərbaycan alimlərinin Əlcəzairə səfəri ölkə mətbuatında ətraflı işıqlandırılmış, mətbuat konfransları təşkil edilmişdir.



*Şəkil 4. Əlcəzair Respublikasının Baş naziri cənab Əhməd Uyahya ilə görüş (Əlcəzair)*

Azərbaycan Milli Elmlər Akademiyası ilə Çin İctimai Elmlər Akademiyası arasında əməkdaşlığın uğurlu davamı kimi hər iki akademiyanın İqtisadiyyat institutlarının təşkilatçılığı ilə Bakıda "Azərbaycan-Çin iqtisadi əməkdaşlığı" mövzusunda konfrans keçirilmişdir. Tədbir çərçivəsində akademiyaların rəhbərliyi, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirinin iştirakı ilə Azərbaycan-Çin elmi əlaqələrinə həsr olunmuş dəyirmi masa təşkil edilmiş və müştərək tədqiqatların istiqamət və mövzuları müzakirə olunmuşdur.

Bu əməkdaşlıq çərçivəsində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin rəhbərlik etdiyi nümayəndə heyəti Çində keçirilən "Dəyişən dünya kontekstində Çinin inkişafı" mövzusunda beynəlxalq elmi simpoziumda məruzə ilə çıxış etmişdir. Səfər zamanı akademik İ.Həbibbəyli Çin Mərkəzi Televiziyasına müsahibəsində Azərbaycan-Çin elmi əlaqələrinin tarixi inkişafı və gələcək perspektivlərini ətraflı təhlil etmişdir (şəkil 5). AMEA-nın əsas hədəflərindən biri beynəlxalq səviyyəli gənc elmi potensialın yetişdirilməsidir. Bu istiqamətdə AMEA elmi müəssisələrinin magistrları, doktorantları və gənc alimlərinin dünyanın qabaqcıl elmi təşkilatlarında təcrübə keçməsi və tədqiqat aparması, beynəlxalq təlim proqramlarında və elmi tədbirlərdə iştirakı məqsədilə onların beynəlxalq layihə və proqramlara cəlb edilməsi üçün



***Şəkil 6. Azərbaycan Milli Elmlər Akademiyası və Monpelye Universiteti arasında əməkdaşlıq sənədlərinin imzalanması (Paris, Fransa)***

geniş imkanlar yaradılır. AMEA elmi müəssisələrindən müxtəlif ölkələrdə qısa- və uzunmüddətli elmi ezamiyyətdə olan gənclər AMEA və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə yanaşı, Erasmus+, Horizon-2020, Fulbright, Volksvagen Fondu və s. kimi beynəlxalq proqram və fondların dəstəyi ilə Avropa, ABŞ, Asiya, Afrika və MDB-nin müxtəlif ölkələrində beynəlxalq treninq kurslarda və elmi forumlarda iştirak etmiş, müştərək tədqiqat qruplarına daxil edilmişlər.

Gənc alimlərin yetişdirilməsi istiqamətində atılan çox əhəmiyyətli addımlardan biri AMEA doktorantlarının Fransanın Monpelye Universiteti ilə birgə hazırlanması üzrə əməkdaşlığın yaradılmasıdır. Bu əməkdaşlıq AMEA Rəyasət Heyətində Monpelye Universitetinin vitse-prezidenti, professor Francois Henn, Fransanın Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyinin Araşdırmalar və İnnovasiyalar üzrə baş direktoru Alain Beretsin rəhbərlik etdiyi Strasburq Universitetinin əməkdaşlarının da daxil olduğu nümayəndə heyəti və Fransanın Azərbaycan Respublikasındakı səfirliyinin əməkdaşları ilə keçirilən görüşlər zamanı müzakirə edilmişdir.

Aparılan müzakirələrin nəticəsi olaraq, Azərbaycan Milli Elmlər Akademiyası və Monpelye Universiteti arasında Əməkdaşlıq haqqında Çərçivə Sazişi, Əməkdaşlıq və Dissertasiya Maliyyələşdirilməsi haqqında Saziş Azərbaycan Respublikası Xarici İşlər naziri cənab Elmar Məmmədyarov və Fransanın Avropa və Xarici Işlər Nazirliyinin Dövlət katibi cənab Jan-Batist Lömuen, həmçinin hər iki ölkənin fövqəladə və səlahiyyətli səfirinin iştirakı ilə Fransanın Xarici İşlər Nazirliyində imzalanmışdır. Qeyd edilməlidir ki, doktorantların müştərək hazırlanması istiqamətində Azərbaycanda ilk dəfə atılan bu addım AMEA-nın gənc elmi potensialı üçün geniş imkanlar açır. AMEA və Monpelye Universitetinin doktorantı kimi qeydiyyatdan keçirilən gənclər AMEA tərəfindən müəyyənləşdirilən elm sahələri üzrə hər iki təşkilatdan elmi rəhbərlə təmin ediləcək, doktorantlar təhsil müddətinin 2 ilini Monpelye Universitetində və 1 ilini AMEA-da tamamladıqdan sonra həm Azərbaycan,




***Şəkil 5. Akademik İsa Həbibbəylinin beynəlxalq elmi simpoziumda məruzəsi (Pekin, Çin)***

həm də Fransa tərəfindən PhD diplomlarına yiyələnmə haqqı qazanacaqlar. Fransa səfəri müddətində AMEA rəhbərliyi və cənab Jan-Batist Lömuen arasında Fransanın digər universitetləri ilə də belə əməkdaşlığın yaradılması perspektivləri, iki ölkə alimlərinin müştərək elmi proqramlarda iştirakı, alim və mütəxəssislərin mübadiləsi imkanları ətraflı müzakirə edilmişdir (şəkil 6).

Azərbaycan Milli Elmlər Akademiyası Türk Dünyası Elmlər Akademiyaları Assosiasiyasının üzvü kimi uğurla fəaliyyət göstərir. Bu əməkdaşlıq çərçivəsində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Qazaxıstanın Astana şəhərində Bey-

nəlxalq Türk Akademiyasının ev sahibliyi ilə Assosiasiyanın növbəti iclasında iştirak etmişdir. Görüşdə əldə olunmuş nailiyyətlər və gələcək planlar müzakirə edilmiş və 2018-ci ildə AMEA-nın Türk Dünyası Elmlər Akademiyaları Assosiasiyasına sədrlik etməsi qərara alınmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının alimləri elmi nailiyyətlərinə görə müxtəlif ölkələrin elmi təşkilatlarının diqqətini cəlb edir, nüfuzlu elmi qurumlar tərəfindən mükafatlara layiq görülür. Belə mükafatlardan biri - "EcoWorld 2017" beynəlxalq ekoloji mükafatı Rusiya Dövlət Dumasında ke- çirilən mərasimdə AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə təqdim edilmişdir. O, "Yer üzərində həyatın qorunmasına görə" ordeni və Rusiya Təbiət Elmləri Akademiyasının "Vətənin rifahı naminə" fəxri medalı ilə təltif edilmişdir. Mükafatı akademik İ.Quliyevə Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin üzvü Yelena Panina və Rusiya Təbiət Elmləri Akademiyasının prezidenti, akademik Oleq Kuznetsov təqdim etmişlər (şəkil 7).



***Şəkil 7. Akademik İbrahim Quliyevin beynəlxalq ekoloji mükafatla təltif edilməsi (Moskva, Rusiya)***

UNESCO ilə müxtəlif istiqamətlər üzrə əməkdaşlıq AMEA alimləri üçün geniş imkanlar açır. UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının sədr müavini, akademik A.Əlizadə Azərbaycan Respublikasının UNESCO-ya üzvlüyünün 25 illiyinə həsr olunmuş Bakıda keçirilən tədbirdə çıxış edərək bu müddət ərzində geniş spektrli müştərək elmi fəaliyyət, əldə edilən əhəmiyyətli nəticələr və gələcək planlardan söz açmışdır.

AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev Fransanın Paris şəhərində UNESCO-nun Baş Konfransının 39-cu sessiyası çərçivəsində elm, təhsil və mədəniyyət komissiyalarının iclaslarında iştirak etmişdir. Tədbir çərçivəsində UNESCO Təbii elmlər sektorunun icraiyyə ofisinin, Beynəlxalq Geologiya və Geoparklar Proqramının və UNESCO-nun Yer Elmləri və Geoloji Təhlükələr Riskinin Azaldılması şöbəsinin rəhbərliyi ilə Azərbaycanda UNESCO Qlobal Geoparkının yaradılması istiqamətində müzakirələr aparılmışdır (şəkil 8).




***Şəkil 8. Akademik Dilqəm Tağıyevin UNESCO-nun Baş Konfransının 39-cu sessiyasında (Paris, Fransa)***

Macarıstan Elmlər Akademiyasının,




*Şəkil 9. AMEA nümayəndə heyəti 8-ci Dünya Elm Forumunda (İordaniya)*

UNESCO və Elm üzrə Beynəlxalq Şuranın təşəbbüsü ilə 1999-cu ildən etibarən təşkil edilən və cari il "Sülh naminə elm" devizi altında İordaniya Haşimilər Krallığında keçirilən 8-ci Dünya Elm Forumunda Azərbaycan elmi AMEA-nın prezidenti, akademik Akif Əlizadə, AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev, AMEA Rəyasət Heyətinin akademik-katibi, akademik Rasim Əliquliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Elçin Babayev və AMEA-nın müxtəlif elmi müəssisələrindən olan bir sıra qabaqcıl alimlərdən ibarət nümayəndə heyəti tərəfindən təmsil edilmişdir. Dünyanın 120-dən çox ölkəsinin 3000-ə yaxın alim və mütəxəssisi, o cümlədən Nobel mükafatı laureatları, akademiklər və siyasətçilərlə yanaşı, İordaniya Kralı II Abdullah, bu ölkənin parlament və hökumət rəhbərlərinin də qatıldığı tədbirdə qlobal dəyişikliklərlə əlaqədar elmin vəzifələri, elm və texnologiyaların inkişafındakı yeni amillər və nailiyyətlər, elm və qida təhlükəsizliyi, enerji və suyun qarşılıqlı əlaqəsi, rəqəmsal transformasiya imkanları və problemləri üzrə mövzular müzakirə edilmişdir (şəkil 9).

AMEA Rəyasət Heyətində müxtəlif ölkələrin (İtaliya, İndoneziya, Bolqarıstan Respublikası, Belarus Respublikası, Əlcəzair Xalq Demokratik Respublikası və s.) Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, həmçinin Kanada, Türkiyə, Rusiya, İsrail, Çexiya və s. ölkələrin elmi qurumlarının və təhsil ocaqlarının rəhbərləri və alimləri ilə görüşlər keçirilmiş, bu ölkələrlə elmi əlaqələrin inkişaf perspektivləri müzakirə edilmişdir.

Alimlərin çoxtərəfli və ikitərəfli beynəlxalq layihələrdə iştirakının genişləndirilməsi məqsədilə AMEA tərəfindən müxtəlif ölkələrin elmi qurumları ilə 2016-2017-ci illərdə imzalanmış əməkdaşlıq sənədləri çərçivəsində növbəti illər üçün müştərək layihə müsabiqələri elan edilmişdir. İtaliya Milli Tədqiqat Şurası (CNR), Belarus Dövlət Elm və Texnologiya Komitəsi və Bolqarıstan Elmlər Akademiyası ilə həyata keçirilən layihə müsabiqələri xüsusi əhəmiyyətə malikdir. Müsabiqələrə təqdim edilmiş layihə təklifləri arasından AMEA və tərəfdaş təşkilatlar tərəfindən elmin prioritet istiqamətlərində innovativ layihələr seçilərək dəstəklənmişdir. Müştərək layihələr gənc alimlərin təcrübə əldə etməsi, həyata keçirilən tədqiqatların nəticələrinin nüfuzlu elmi jurnallarda dərc edilməsi və beynəlxalq elmi tədbirlərdə təqdim edilməsi, tərəfdaş təşkilatlarla uzunmüddətli əməkdaşlığın yaradılması üçün geniş perspektivlər açır.